2003

**BƏYANAT**

XX əsrdə insanlara qarşı törədilmiş zorakılığın, qeyri-insani rəftarın, işgəncələrin ən dəhşətli səhifələrindən olan Ermənistanın Azərbaycana qarşı apardığı təcavüz və davamiyyətli, zəncirvari genosid siyasəti nəticəsində törətdiyi hadisələrdir ki, bunlar insan hüquq və azadlıqlarının kütləvi pozulması ilə müşahidə olunmuşdur.

Məlum olduğu kimi Ermənistan tərəfindən Azərbaycan torpaqlarında məhz etnik əlamətlərinə görə, azərbaycanlılara garşı qabaqcadan düşünülmüş niyyətlə 1905-1907-ci illərdə, 1918-ci ildə kütləvi qırğınlar törədilməklə genosid siyasəti həyata keçirilmışdır.

Ermənistanın 1988-ci ildə başladığı hərbi təcavüz nəticəsində Azərbaycan ərazilərinin 20%-i işğal edilmiş, 800-dən çox yaşayış məntəqəsi, 6 minə yaxın sənaye və kənd təsərrüfatı müəssisəsi, 4 366 sosial-mədəni obyekt, o cümlədən 690 orta məktəb, 490 səhiyyə obyekti, 927 kitabxana, 22 muzey, 6 dövlət teatrı yandırılmış və dağıdılmışdır. Ölkə iqtisadiyyatına 22 milyard ABŞ dollarından çox ziyan vurulmuşdur.

Təcavüz nəticəsində 20 mindən çox həmvətənlimiz həlak olmuş, 50 mindən artıq adam yaralanmış, əlil və şikəst olmuşdur.

Minlərlə Azərbaycan vətəndaşı əsir və itkin düşmüş, girov götürülmüşdür ki, bunların çoxunun taleyi hələ də məlum deyildir. Bir milyondan çox azərbaycanlı qaçqına və öz vətənində məcburi köçkünə çevrilmişdir ki, onların da 200 mindən çoxu etnik təmizləmə siyasəti nəticəsində zorakılıqla Ermənistandan qovulanlardır.

Dərin tarixi kökləri olan bu hadisələr silsiləsində 11 il əvvəl , 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ötən əsrin ən böyük faciələrindən olan Xocalı soyqırımı baş vermişdir. Bir gecədə Xocalı şəhəri bütövlüklə yandırıldı, dağıdıldı, dinc əhali amansız qırğına məruz qaldı, 613 nəfər şəhid oldu, onlardan 56-sı xüsusi qəddarlıq və işgəncələrlə gətlə yetirildi, 230 ailə öz başçısını itirdi, 1275 nəfər əsir düşmüş soydaşımız amansız işgəncələrə məruz qaldı.

Erməni silahlı birləşmələrinin məlum rus 366-ci alayının dəstəyi ilə törətdikləri cinayətkar əməlləri nəticəsində Xocalı şəhəri yerlə yeksan edilmiş, etnik əlamətinə görə yüzlərlə sakin öldürülmüş, diri-diri yandırılmışdır ki, onların hamısı əlisilahsız dinc əhalidən olan qadınlar, qocalar, uşaqlar olmuşlar.

Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyətilə törədilməsi beynəlxalq hüquq və dövlətdaxili hüquqa əsasən məhz genosid olduğunu sübut edir. Azərbaycanın Xocalı şəhərində törədilmiş bu qəddarlıq və vəhşilik dünyada soyqırım kimi tanınmış Xatın və Sonqmi faciələri ilə eyni səviyyədə qiymətləndirilməlidir.

Beynəlxalq hüquqa görə genosid ən ağır beynəlxalq cinayət olmaqla sülh və bəşəriyyət əleyhinə yönələn əməldir. BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 (I) saylı qətnaməsində qeyd olunur ki, genosid, insan qruplarının yaşamaq hüququnu tanımamaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dayaqlardan məhrum edir və belə əməllər BMT-nin məqsəd və vəzifələrinə tam ziddir.

Genosid cinayətinin hüquqi əsası BMT Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş və 1961-ci ildə qüvvəyə minən Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya ilə müəyyən olunmuşdur.Konvensiyanın iştirakçı dövlətləri sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edir, onun qarşısını almaq və törədilməsinə görə cəzalandırmaq üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər.

Genosidə görə məsuliyyət universal və məcburi xarakter daşıdığından yalnız zərər çəkmiş tərəf deyil, həmçinin digər dövlətlər də genosid cinayətini törətmiş dövlətin məsuliyyətə cəlb olunması üçün tədbirlər görə bilərlər. Belə ki, Konvensiyanın əsasında duran prinsiplər, BMT Beynəlxalq Məhkəməsi tərəfindən bütün dövlətlər üçün məcburi xarakter daşıyan normalar kimi tanınmışdır.

Bu Konvensiyada təsbit olunmuş genosid cinayətini təşkil edən bütün əməllər Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı tətbiq olunmuşdur.

Azğınlaşmış erməni təcavüzkarlığı, Ermənistanın terror siyasəti artıq 15 ildir ki, dünya ictimaiyyətinin gözü önündə baş verdiyi halda, onun səbəblərindən olan Dağlıq Qarabağ münaqişəsi hələ də dünya birliyi tərəfindən öz hüquqi qiymətini almamışdır.

İnsan hüquqları haqqında Ümumi Bəyannamədə, İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında, BMT Təhlükəsizlik Şurasının Azərbaycanın ərazi bütövlüyünü tanıyan və Ermənistanın işğalçı siyasətini təsdiqləyən 30 aprel 1993-cü il 822 saylı, 29 iyul 1993-cü il 853 saylı, 14 oktyabr 1993-cü il 874 saylı və 11 noyabr 1993-cü il 884 saylı qətnamələrində, BMT-nin Qadınların vəziyyəti üzrə Komissiyasının əsir və girov götürülmüş qadın və uşaqların qeyd-şərtsiz azad olunması və vətənə qaytarılması haqqında qətnamələrində, bir sıra beynəlxalq konvensiyalar və insan hüquqlarına dair beynəlxalq aktlarda təsbit olunmuş hüquq və azadlıqlar kobud şəkildə pozulsa da bu terrorçu, işğalçı əməllərə qarşı qəti tədbirlər görülməmiş və günahkarlar cəzalandırılmamışdır.

BMT-nin İnsan hüquqları üzrə Ali Komissarlığının 28 aprel 1999-cu ildə qəbul etdiyi hüquq pozuntuları səbəbkarlarının cəzasız qalması haqqında qətnaməsində insan hüquqlarının pozulmasının qarşısının alınması üçün cəzasızlıqla mübarizənin vacibliyi xüsusilə qeyd edilmişdir. Həqiqətən cəzasızlıq yeni cinayətlər

doğurur. Bunun təsdiqi olaraq erməni təcavüzkarları və terrorçuları öz cəzalarını almadığından daha da azğınlaşır və ədalətli sülhə imkan yaratmırlar.

Nəticədə isə təcavüzkarlar silah və zor gücünə zəbt etdikləri torpaqların azad olunmasına və bir milyon nəfərdən çox qaçqın və məcburi köçkünün öz yurdlarına qayıtmasına, normal həyat tərzi sürməklə insan hüquqlarını həyata keçirməsinə sədd çəkmişdir.

Bu gün dünya miqyasında anti-terror hərəkatının geniş vüsət aldığı, ərazi bütövlüyünün təmin olunması prinsipinin hamılıqla qəbul edildiyi bir dövrdə işğala, terrora, genosidə məruz qalmış bir xalq kimi Azərbaycan xalqının da nüfuzlu və səlahiyyətli beynəlxalq təşkilatlardan ayrı-seçkiliyə, ikili standartlara yol verilmədən insanların pozulmuş hüquqlarını bərpa edilməsini, işğal olunmuş torpaqların qaytarılmasını təmin etməyi, qaçqın və məcburi köçkünlərin yurdlarına qaytarılmasını tələb etmək haqqı vardır.

Azərbaycan yeni minilliyə beynəlxalq hüququn bərabərhüquqlu subyekti kimi qədəm qoymuş, vətəndaş cəmiyyətinin formalaşdığı, əsas insan hüquq və azadlıqlarını təmin edən, beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə, beynəlxalq konvensiyalara riayət edən, hüquqi, demokratik, dünyəvi bir dövlətdir.

Əminik ki, haqq və ədalət tezliklə öz yerini tapacaq, Azərbaycana qarşı təcavüzü, Xocalı soyqırımını törədənlər beynəlxalq ədalət məhkəməsi qarşısında cavab verəcəklər.

Ümidvarıq ki, siz bütün dünya azərbaycanlılarının bu haqq səsinə səs verəcək, Azərbaycan torpaqlarında sülhün və əmin-amanlığın, Azərbaycan xalqının pozulmuş hüquq və azadlıqlarının bərpa olunmasında bütün imkanlarınızı səfərbər etməklə yardımçı olacaqsınız.

Bəyanata həmçinin Xocalı soyqırımını daha müfəssəl əks etdirən kitabça əlavə olunur.

**Azərbaycan Respublikasının**
**İnsan Hüquqları üzrə Müvəkkili**
**(Ombudsman)** **E. Süleymanova**

Bəyanat aşağıdakı təşkilatlara ünvanlanmışdır:

1.BMT-nin Baş katibinə
2. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarına
3. BMT-nin Qaçqınlar üzrə Ali Komissarına
4. Avropa Şurasının Baş katibinə
5. ATƏT-ə.